

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 93 (23.735)

*25 may 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidmətinin (bundan sonra – Xidmət) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının, hakimlərin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən ordu, hissə və birləşmələrinin, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarının şəxsi heyətinin, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslərin və toplanışlarda olan hərbi vəzifəlilərin, prokurorların, müstəntiqlərin, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən şəxslərin və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətləri 2022-ci il yanvarın 1-dən Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fonduna həvalə edilsin.

2. Müəyyən edilsin ki:

2.1. dövlət icbari şəxsi sığortası sahəsində uçotun aparılması, sığorta haqlarının ödənilməsinə nəzarət, sığorta ödənişlərinin qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə verilməsi, sığorta ehtiyatlarının yaradılması, artırılması, habelə dövlət icbari şəxsi sığortası sahəsində digər işlərin görülməsi Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond) tərəfindən həyata keçirilir;

2.2. dövlət icbari şəxsi sığortası üzrə daxil olan sığorta haqları (bundan sonra – sığorta vəsaiti) Fondun xüsusi xəzinə hesabında toplanır;

2.3. sığorta vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə olunur:

2.3.1. dövlət icbari şəxsi sığorta ödənişlərinin verilməsinə;

2.3.2. sığorta ehtiyatının yaradılmasına;

2.3.3. müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə;

2.4. sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə qaydasını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir;

2.5. sığorta ehtiyatı Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklarda depozitə yerləşdirilir;

2.6. 2022-ci il yanvarın 1-dək sığortaolunanlara sığorta ödənişlərinin verilməsini Xidmət həyata keçirir.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan səlahiyyətlərin Fonda verilməsi ilə əlaqədar Fond və Xidmət müvafiq sənədlərin və məlumatların 2021-ci il dekabrın 31-dək təhvil-təslim işlərini təmin etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 may 2021-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 20 illiyi münasibətilə Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları da vardır:

**Əhmədova Seyran Əhməd qızı**
**Tağıyev Qınyaz Şirməmməd oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 96-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Səlahiyyət müddəti başa çatmış aşağıdakı hakimlər "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Allahverdiyev Əli Kərim oğlu,
Kuimova Vera Gennadiyevna,
Qurbanov Yusifəli Süleyman oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
**Azərbaycan Respublikası Milli Məclisinin Sədri**

*Bakı şəhəri, 21 may 2021-ci il*

## Naxçıvan Muxtar Respublikası yeni iqtisadi inkişaf mərhələsində

***Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbə təkcə işğal altında olan torpaqlarımızın qaytarılması ilə deyil, həm də regionda yeni reallıqların yaradılması ilə nəticələndi. Hərbi əməliyyatların başa çatdırılması ilə bağlı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə imzaladıqları bəyanatdakı ən mühüm məqamlardan biri də bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasıdır. Xüsusilə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni dəhlizin inşasının təmin edilməsi siyasi tərəfləri ilə bərabər, böyük iqtisadi əhəmiyyəti ilə də seçilir.***



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü günü muxtar respublikaya səfəri, burada verdiyi açıqlamalar, həm də bəhs olunan dəhlizin siyasi-iqtisadi, eləcə də siyasi təhlili, Naxçıvanın strateji əhəmiyyətinin qiymətləndirilməsi baxımından böyük önəm daşıyırdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uğurlu rəhbərliyi ilə uzun illər ərzində çətin blokada şəraitində həyata keçirilmiş möhtəşəm quruculuq işləri, bütün sahələr üzrə əldə olunmuş böyük nailiyyətlər, nəhayət, Prezidentin səfəri çərçivəsində rəsmi açılışa hazır olan mühüm obyektlər, həm də muxtar respublikanın ulu öndərin ad günündə ölkə başçısı qarşısında məsuliyyətli bir hesabatı idi. Ötən illər ərzində sahibkarlığa göstərilən böyük dövlət qayğısı sayəsində iqtisadiyyatın şaxələndirilməsi, sənaye və kənd təsərrüfatının infrastruktur təminatının yaxşılaşdırılması, yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini vermişdir. Sevindirici haldır ki, bu gün muxtar respublikada istehsal olunan bir çox sənaye və kənd təsərrüfatı məhsulları onlarla xarici ölkələrə ixrac olunur.

Təsadüfi deyil ki, Naxçıvandakı iqtisadi artımı rekord göstərici kimi dəyərləndirən ölkə başçısı demişdir: ***"Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir. Bu gün Süni Mayalanma Mərkəzinin açılışında olduq. Bildirməliyəm ki, ölkəmizdə cəmi iki mərkəz var – biri Göygöldə, biri də Naxçıvanda. Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində yaxın 4-5 ildən sonra Naxçıvanda südçülük sahəsində artıq bütün işlər tamamlanmış olacaq və Naxçıvan özünü necə ki, digər əsas ərzaq məhsulları ilə təmin edir, südlə də təmin edəcəkdir. Yəni bütün bunlar inkişafın təzahürüdür".***

Dövlət başçısının səfərində ən mühüm məqamlardan biri, həm də iqtisadi baxımdan Naxçıvanın inkişafına mühüm təsir göstərəcək Zəngəzur dəhlizinin açılması ilə bağlı fikirlər idi. Cənab Prezident Ordubad dəmir yolu stansiyası ilə tanış olan zaman demişdir: ***"Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır".***

Bəli, bu gün Naxçıvan özünün sürətli inkişaf dövrünü yaşayır. Statistik rəqəmlərə nəzər salsaq, muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin əvvəlki illərdə olduğu kimi, 2021-ci ilin ilk dörd ayında da davam etdirildiyini görə bilərik. Bu dövrdə iqtisadi inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 758 milyon 840 min 800 manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 0,7 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 1643,2 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 344 milyon 811 min 500 manat dəyərində məhsul istehsal edilmişdir. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin ilk rübündə sənaye məhsulu 1,1 faiz çoxdur, əsas kapitala yönəldilən vəsaitlər bir il öncəki göstəricidən 1,2 faiz, kənd təsərrüfatı məhsulu 3,3 faiz, informasiya və rabitə xidmətləri 9,9 faiz artmışdır.

Qeyd olunan göstəricilər bir daha onu sübut edir ki, muxtar respublikada iqtisadiyyatın inkişafı davamlı xarakter daşıyır. Hətta pandemiya dövründə belə, bu inkişaf dayanmayıb, əksinə, göstəricilər əvvəlki dövrlərlə müqayisədə daha da artıb. Bütün bunların fonunda ölkə başçımızın 10 may 2021-ci il tarixli Naxçıvan səfərinin gündəliyində bir sıra mühüm sosial-iqtisadi obyektlərin açılışı ilə yanaşı, Zəngəzur nəqliyyat dəhlizi ilə əlaqədar məsələlərin də xüsusi yer tutması bu səfər zamanı həyata keçirilən tədbirlərin region üçün necə böyük önəm daşıdığını göstərir. Həm də təkcə Cənubi Qafqaz regionu üçün deyil. Çünki Naxçıvan-Zəngəzur-Mincivan dəmir yolu xəttinin yenidən bərpası ilə muxtar respublika blokadadan çıxarılacaq, eyni zamanda Azərbaycan vasitəsilə Rusiya, Türkiyə və İranın, hətta Avropa ilə Asiyanın nəqliyyat əlaqələrinin yaradılmasına və inkişaf etdirilməsinə yeni imkanlar yaranacaq. Buna görə də ölkə iqtisadiyyatının dayanıqlılığı nöqteyi-nəzərindən Naxçıvan dəhlizinin açılması uzunmüddətli perspektivdə milli iqtisadiyyatımızda investisiyaların xüsusi çəkisinin artmasına səbəb olacaq. Şübhəsiz ki, investisiyaların artımı, bütövlükdə, dayanıqlı iqtisadi artımın sürətlə inkişaf etməsinə imkan verəcək.


**Nihad MEHBALIYEV**
***Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müəllimi***

# “Naxçıvan-bəşəriyyətin beşiyi”
# V Beynəlxalq Rəsm Festivalının açılış mərasimi olub





*Mayın 24-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalının açılış mərasimi olmuşdur.*

Festival iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoymuş, ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildirmişlər. Sonra Heydər Əliyev Muzeyi ziyarət edilmiş, ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxılmışdır.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında keçirilən açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli bildirmişdir ki, Azərbaycanda mədəniyyətin, incəsənətin, o cümlədən təsviri sənətin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin Azərbaycana rəhbərliyinin hər iki dövründə rəssamlıq sənəti üstün istiqamət verilən sahələrdən biri olmuş, milli mədəniyyətin və təsviri sənətin inkişafında yeni mərhələ başlanmış, rəssamlar üçün hərtərəfli yaradıcılıq imkanları yaradılmışdır. Bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət və incəsənətin inkişafı sahəsində əsasını qoyduğu ənənələr davam etdirilir, yaradıcı şəxslərə dəstək verilir, zəngin keçmişə malik olan rəssamlıq məktəbinin qorunub saxlanılması və inkişafı üçün ardıcıl tədbirlər görülür. Naxçıvan torpağının yetirdiyi görkəmli rəssamlar Bəhruz Kəngərlinin, Şamil Qazıyevin, İbrahim Səfiyevin yubileyləri muxtar respublikada geniş qeyd edilmişdir. Ali Məclisin Sədri Rəssamlar Birliyinin 40 və 50 illik yubileylərinin, Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Rəsm Festivalının keçirilməsi haqqında da sərəncamlar imzalamışdır. Bu il həm də muxtar respublikada Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunur. “Naxçıvan – bəşəriyyətin beşiyi” Beynəlxalq Rəsm Festivalının da yubiley ərəfəsində keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Dünyada və ölkəmizdə tanınmış rəssamların qatıldığı bu festival mədəniyyət və incəsənətimiz üçün çox əhəmiyyətli və əlamətdar hadisədir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirmişdir ki, muxtar respublikada rəssamlığın və təsviri sənətin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Ötən müddət ərzində bu sahədə ciddi dönüşə nail olunmuş, ali təhsil ocaqlarında müvafiq ixtisaslar açılmışdır. Heydər Əliyev Uşaq-Gənclər və Estetik Tərbiyə mərkəzlərində, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılmışdır. Bununla yanaşı, muxtar respublikada Naxçıvan Dövlət Rəsm Qalereyası,




10 məktəbdənkənar müəssisədə və 3 uşaq-incəsənət məktəbində rəsm dərnəkləri fəaliyyət göstərir. Rəssamların fərdi sərgilərinin açılması, Azərbaycan boyakarlıq sənətinin klassik və müasir nümayəndələrinin albom-kataloqlarının hazırlanıb nəşr edilməsi Naxçıvan Muxtar Respublikasında təsviri sənətin səviyyəsini, yaradıcılıq axtarışlarının istiqamətlərini müəyyənləşdirən mühüm amillərdəndir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin, o cümlədən muxtar respublikada yaşayıb-yaradan rəssamların yaradıcılıq imkanlarının artırılması üçün 2013-cü ildə birlik üçün yeni bina istifadəyə verilmiş, rəssamların çalışdığı köhnə emalatxanalar yeniləri ilə əvəzlənmişdir. Muxtar respublikada fəaliyyət göstərən rəssamların əməyi də yüksək qiymətləndirilmiş, ötən dövr ərzində onlardan 1-i Azərbaycan Respublikasının Xalq rəssamı, 1-i İncəsənət xadimi, 5-i Azərbaycan Respublikasının, 6-sı isə Naxçıvan Muxtar Respublikasının “Əməkdar rəssamı” fəxri adları ilə təltif olunmuşdur. Ülviyyə Həmzəyeva göstərilən yüksək diqqət və qayğıya görə festival iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında musiqi və rəqs nömrələri təqdim edilmiş, festivalın yaradıcılıq hissəsinə başlanılmışdır.

**“Şərq qapısı”**

# Sənətkarlar yurdunda növbəti sənət bayramı





*Bəşər sivilizasiyasının mədəniyyət ocağı olan Naxçıvanımızda rəssamlığın tarixi lap qədim zamanlardan, Gəmiqaya təsvirlərindən başlamış tarixin bütün dövrləri ilə səsləşən intibah mədəniyyətinin, memarlıq məktəbinin təsiri ilə inkişaf etmiş, diyarımızın təbiət gözəlliklərini öz fırçası ilə tariximizə həkk edən realist rəssamlığın banisi Bəhruz Kəngərli ilə özünün ən qüdrətli dövrünə çatmışdır. Bu gün isə vaxtilə Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatı kimi fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yarıməsrlik bir sənət tarixi ilə daha da zənginləşir və inkişaf edir.*

Muxtar respublikamızda rəssamlıq sənətinə verilən qiymətin parlaq təzahürüdür ki, ümummilli lider Heydər Əliyevin 98-ci ildönümünə həsr olunmuş növbəti “Naxçıvan bəşəriyyətin beşiyi” adlı rəsm festivalı keçirilir. 42 rəssamın iştirak etdiyi festival 23 may tarixdən başlayıb. Həmin tarixdə şəhərin Saat Meydanında rəssamlarla görüş olub. Daha sonra Saat Meydanının Kinoteatr zalında Naxçıvan Rəssamlar Birliyinin hazırladığı videoçarx izlənilib.

Tədbirə giriş sözü ilə başlayan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva keçirilən festivalın tarixi əhəmiyyətindən danışıb. Bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ölkə həyatının bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsində də əsl intibaha nail olunub. Ulu öndərin əsasını qoyduğu mədəniyyətə qayğı və mədəni inkişaf siyasəti bu gün də öz bəhrəsini verməkdə davam edir. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə məqsədyönlü tədbirlər görülüb, tarixi-mədəniyyət abidələri yenidən qurulub, mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilib. Həmçinin muxtar respublikada incəsənət adamlarına, eləcə də rəssamlara xüsusi diqqət və qayğı göstərilir. “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalının keçirilməsi də bu diqqət və qayğının daha bir ifadəsidir.

Azərbaycanın Xalq rəssamı, professor Arif Hüseynov çıxış edərək qonaqları salamlayıb, Rəssamlar İttifaqı adından festivalın keçirilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi münasibətilə təbrik edib, həmkarlarına yaradıcılıq uğurları arzu edib.

Rəssam, pedaqoq Rəna Məmmədova çıxış edərək deyib ki, bu gün rəssamlar ikiqat sevinc hissi yaşayır. Çünki bu festival həm də Dağlıq Qarabağın düşmən işğalından azad olunduğu dövrə təsadüf edir. Sevinirik ki, 30 il köksümüzdə nisgil bağlamış Qarabağ yarası artıq sağalıb. Əzəli-əbədi torpağımız olan Qarabağımız Azərbaycana qovuşub. Rəna Məmmədova bu münasibətlə bütün tədbir iştirakçılarını təbrik edib, bundan sonrakı fəaliyyətlərində onlara uğurlar, müvəffəqiyyətlər arzulayıb.

Tədbirdə mərhum rəssam, professor Tahir Salahovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iştirakçılara rəsm üçün lazım olan ləvazimatlar təqdim olunub.



“Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalının iştirakçıları proqram çərçivəsində muxtar respublikanın tarixi və təbiət abidələrinə, görməli yerlərinə ekskursiyalar ediblər. Qonaqlar əvvəlcə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən göycə satış yarmarkasında olublar. Ailə təsərrüfatçıları sənətkar qonaqlarımızı məmnuniyyətlə Naxçıvanın bu brend məhsuluna qonaq ediblər. Daha sonra Batabat iqlim kurort zonası və Ağbulaq İstirahət Mərkəzinə səfər olub. Naxçıvanın əsrarəngiz gözəllikləri, zəngin turizm potensialı təbiət vurğunu rəssamlarımızda böyük maraq yaradıb.

Rəssamlarımızın diyarımız haqqında təəssüratlarını oxucularımıza təqdim edirik.

Azərbaycan Respublikasının Əməkdar rəssamı *İrina Eldarova*: – Mən Naxçıvanı çox sevirəm. Buranın təbiəti, insanları tamam başqadır. Gəzib-görməli yerləri, füsunkar təbiəti insanı valeh edir. Hər il burada iştirak edirəm. Bir il gəlirəmsə, gələn il mütləq bir daha gəlmək istəyirəm ki, buranın enerjisini ala bilim. Naxçıvan şəhəri və buranın insanları böyük divarlar arasında, blokadada olmasına baxmayaraq, çox gözəl və müasir simaya sahibdir. Həqiqətən, çox sakit, təmiz diyardır. Batabat isə öz gözəlliyi ilə göz qamaşdırır.

Azərbaycan Rəssamlar Birliyinin üzvü *İlqar Əkbərov*: – Mən dünyada bir çox festivallarda iştirak etmişəm, amma Naxçıvanda keçirilən festivallar tamam başqa olur. Gözəl təbiəti, qonaqpərvər insanları, başlıcası isə rəssamlıq sənətinə olan münasibətə görə Naxçıvan hər yerdən fərqlənir. Burada diqqətimi çəkən ən gözəl məqam isə gənc rəssamların da bizimlə birlikdə olması idi. Bu, çox sevindirici haldır ki, yaradılan şərait sayəsində rəssamlıq ənənəsi gənclər arasında bu qədər sevilir və seçilir.

Sonra iştirakçılar Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

Mayın 24-də festival iştirakçıları qədim sənətkarlar yurdu Naxçıvanda bu növbəti sənət bayramına başlamazdan əvvəl Azərbaycan incəsənətinin inkişafında misilsiz xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət etməyi, bu dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad etməyi özlərinə mənəvi borc biliblər. Heydər Əliyev Muzeyi ilə tanışlıq sənətkarlarda böyük maraq yaradıb. Onların təəssüratlarından öyrəndik ki, müstəqil Azərbaycanın memarı və qurucusu olan ulu öndərin həyat və fəaliyyətinin müxtəlif mərhələləri təsviri sənətimiz üçün zəngin mövzu mənbəyidir. Sonra rəssamların iştirakı ilə Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Parkında festivalın açılış mərasimi keçirilib, rəssamların yaradıcılıq fəaliyyəti başlayıb.

Festivalın ən maraqlı hissəsi Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Parkında bütün rəssamların iştirakı ilə keçirilən yaradıcılıq tədbiri olub. Belə ki, hər bir rəssam Azərbaycanın ən qədim guşələrindən sayılan Naxçıvanı kətan üzərində əks etdirməyə çalışdı. Muxtar respublikanın zəngin təbiətini, heyrətamiz rənglərini, bənzərsiz mənzərələrini fırça ustaları kətana köçürüblər.

Rəssam *Mirazər Abdullayev* çəkdiyi “Naxçıvan gözəli” əsəri barədə danışıb: – Naxçıvana ilk dəfədir ki, səfər edirəm. Burada beynəlxalq rəsm festivalının yüksək səviyyədə keçirilməsi və yaradılan şərait bütün rəssamlar tərəfindən sənətə və sənət adamlarına göstərilən qayğı kimi dəyərləndirilir. Yaradıcılığın ilk günü bu qədər əsərin çəkiləcəyini təsəvvür etmirdik. Lakin Naxçıvanın tarixi abidələri, təbiəti və müasir inkişafı ilə tanışlıq, buradakı qonaqpərvərlik hər bir rəssamı daha səylə işləməyə ruhlandırdı. Qısa müddətdə festival iştirakçıları tərəfindən Naxçıvanla bağlı əsərlərin çəkilməsi və sərginin açılması bunu bir daha təsdiq edir. Naxçıvanda rəssamlar üçün yaradılan şəraiti bundan sonrakı fəaliyyətimizdə də daim təbliğ edəcəyik.

Sonda qeyd edək ki, bu gün çəkilmiş əsərlərdən ibarət sərgiyə baxış keçiriləcək.

**Məcid RƏŞADƏTOĞLU**
**Aytac CƏFƏRLİ**

# Üç il öncə Qızılqayada qaldırılan ay-ulduzlu bayrağımız bu gün Şuşada dalğalanır



*Üç il öncə, dağlarda qızıl lalələr açanda bizim də könlümüz igid oğullarımızın qəhrəmanlığı ilə açıldı. İllərdir, həsrətlə yol gözləyən Günnütümüz azad oldu. Oğuz eli, Vətən torpağı, Dədə Qorqudun izlərini özündə gizləyən Naxçıvanın əzəli parçası Günnüt yenidən əsl sahibinə – öz anasına, Azərbaycanına qovuşdu. Qəhrəmanlar yurdu, qədim Naxçıvanın igid oğulları tariximizin şanlı səhifələrinə daha bir zəfər dastanı yazdı. Həmin gün, sanki yenidən dünyaya gəldi Günnüt. Babalardan miras qalan qeyrət yolunda oğullarının qazandığı zəfərlə qovuşduq atalarımızın ruhunun gəzdiyi torpağa. Zəfər himni çalındı, azan oxundu, illərdir, həsrətində olduğumuz torpaqda. Bu gün Naxçıvan-Sədərək magistral yolunun kənarındakı "Günnüt" yazılan lövhəyə baxanda xatirələrim məni 30 il bundan öncəyə aparır. Bu kəlmədə nələr var, hansından deyim, hansından yazım, görəsən?*

1990-cı illərə, texnikasız, yüngül çaplı silahlarla Ermənistanla sərhəd kəndlərimizin keşiyində duran oğulların igidliyindənmi, evini tərk etmək istəməyib "buradan getmərəm, mənim qibləm bu yurddadır, bu torpağın ətrini almadan onsuz da yaşaya bilmərəm", – deyən analarımızdanmı? Yoxsa yoldaşı səngərdə döyüşən, özü isə güllə yağmuru altında gündüzlər döyüşçülərə isti yemək, çörək bişirən, qışın o sərt günlərində səngərdə döyüşçülərin ayaqları donmasın deyə, gecələr yun corab toxuyan gəlinlərimizdənmi, son yadigarı olan nişan üzüyünü, qulağındakı sırğanı, boynundakı hilini silah alınması üçün müdafiə fonduna bağışlayan nənələrimizdənmi? Ya başsız başçılarımızın ögey münasibəti sayəsində təkbaşına qalmasına baxmayaraq, son ana kimi döyüşən mərd Naxçıvandanmı? Biz bunları kitablardan oxumadıq, kinolarda görmədik. Yaşadıq bunları, şahid olduq. Amma heç vaxt sınmadıq, əyilmədik. Tarixin ikinci oyununa da qalib gəldik, qopmadıq anamızdan, qopara bilmədilər bizi Azərbaycandan. Onların məkrli planı yüz il öncə bizi anamızın bağrından qoparıb mənfurlara vermək idi, İrəvan, Zəngəzur kimi. Amma bacara bilmədilər həmin dövrdə də, yenə də. Bütün dünya birləşsə də, bizim bütövlük, birlik sevgimizi bitirə bilmədi. Həmin illərdə burada Əlincənin rəşadəti bir daha yaşandı. Ötən əsrin 90-cı illəri yaddaşımıza həm çətin, həm də birlik, qəhrəmanlıq illəri kimi yazılıb. Həmin illərdə Azərbaycanımız bədnam qonşularımızın hücumuna məruz qalmışdı. Muxtar respublikamızdakı vəziyyət isə heç də ürəkaçan deyildi. Düşmən hücumları ilə bərabər, blokadaya da alınan yurdumuzda insanlar çətin də olsa, düşmən hücumlarının qarşısını mərdliklə alır, geri çəkilmirdilər. O günlərdə Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalırdı. Mənfurların atdıqları mərmilər rayon mərkəzinə belə, düşürdü. Sədərəkdə qanlı döyüşlər getməsinə baxmayaraq, düşmənə əsir düşən Günnüt qəlbimizin sızlayan yarasına çevrilmişdi. O Günnüt ki orada Asəf Rəhimov kimi oğullar son ana kimi döyüşmüş, düşmənə əsir düşməmək üçün son gülləsi ilə öz canına qıymışdı. Onun da ruhu düz 26 il idi ki, həsrətlə yolumuzu gözləyirdi. Günnüt, oradakı şəhid ruhları doğma insanlarının səsini, isti nəfəsini soraqlayırdı, yollara dikilmişdi gözləri. Haray salırdı, düşmən tapdağında yaşamaq istəmirdi, səbri də tükənmişdi o gözəl torpağın.





2018-ci ilin may ayında Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edildi. Bununla da ordumuz daha əlverişli mövqelərə sahibləndi, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək "Areni" qoymuşdular) nəzarət altına keçdi. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edildi. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı torpaqlardır. Şərur rayonunun Günnüt kəndini nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verməsidir. Strateji əhəmiyyətli Arpaçay su dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Qazanılan uğur Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən "Uğurlu Naxçıvan əməliyyatı" adlandırılıb. 2018-ci il iyulun 3-də qələbədən sonra Ali Məclisin Sədri işğaldan azad edilən Günnüt kəndindəki Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti ilə tanış olduğu görüşdə deyib: ***"Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi".***

Yaxın günlərdə – may ayının 10-da ulu öndərin böyük qələbədən sonrakı ilk ad günündə Onun dünyaya gəldiyi torpağa səfər edən Ali Baş Komandan cənab İlham Əliyev 2018-ci ildə qazanılan zəfərini xatırladaraq deyib: ***"Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan Ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır. Günnüt əməliyyatı, biz də dediyim kimi, bunun üstünü vurmaq istəmədik. Amma ondan sonra Ermənistanın artıq devrilmiş hakimiyyətinin jurnalist nümayəndələri gedib bizim yeni postlarımızı çəkib, bunu internetdə qoyubdur, paylaşıbdır və ondan sonra Ermənistanda hay-küy qalxdı. Onda mən dedim ki, daha biz də niyə gizlətməliyik? Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tapşırıq verdim ki, siz də məlumat verin, çəkiliş qrupu göndərin və çəkiliş qrupu getdi, həmin o yüksəklikləri gördü. Yəni Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi".***

Həmin günlərdə azad olunan Qızılqayadan Qarabağımızın başıqarlı dağlarını görənlər Naxçıvanımızın tarixinin şanlı səhifələrindən birinin yazıldığı Günnüt zəfərinin Qarabağda qurulacaq toy-büsatımızın xəbərçisi olduğunu deyirdilər. Hər birimiz yaxşı bilirdik ki, işğaldan azad ediləcək növbəti ünvan Qarabağımız olacaq. Günnüt kəndinin mühafizəsi artıq etibarlı əllərdə, öz əsgərlərimizin nəzarətində olan gündən bu torpaqlarda dolaşan ruhlar da dinclik tapdı. Hakim mövqelərə nəzarət edən ordumuzun qüdrətindən qorxuya düşən ermənilər bir güllə atmağa belə, cəsarət etmirlər. Bu gün fəxr və qürur hissi ilə deyirik ki, Günnüt zəfərini qazanan igidlərimizin səsi Vətən müharibəsində Şuşadan, Cəbrayıldan, Zəngilandan gəldi. Onlar torpaqlarımızı işğaldan azad edib şəhid, qazi, qalib olub başımızı uca etdilər.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Təlimlər davam edir



Naxçıvan Qarnizonu Qoşunlarında mayın 17-dən başlayan komanda-qərargah təlimi davam edir.

Təlimin növbəti mərhələsində qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar səhra idarəetmə məntəqələrində xəritələr üzərində işlənilib, qəbul edilmiş qərarlar rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə praktik fəaliyyətlərə cəlb olunmuş bölmələrə çatdırılıb.

Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, eləcə də döyüş fəaliyyətlərinin gedişi zamanı artilleriya bölmələrinin ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyəti praktik olaraq məşq etdirilib.

Ordu aviasiyasının havadan himayəsi ilə taktiki desantın düzən əraziyə və çətin relyefə malik hakim yüksəkliyə çıxarılması həyata keçirilib. Kəşfiyyat və xüsusi təyinatlı bölmələr çətin dağ şəraitində diversiya-təxribat xarakterli fəaliyyətləri icra ediblər.

**Kənan CƏLİLOV**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər



aprel ayında da davam etdirilmişdir. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 17 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 378 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 156-sı əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 222 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 74-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Teleradio jurnalistikasının inkişafı diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası aprel ayında da muxtar respublikanın teleradiolarının fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır.

Naxçıvan televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlər, Dövlət proqramlarının icrası ilə bağlı görülən işlərə həsr olunmuş 7 telematerial hazırlanmışdır. Aprel ayında televiziyanın öz telemәhsulları və sənədli filmlər və dublyaj redaksiyasının dublyaj etdiyi materialların həcmi efirin 72 faizini təşkil etmişdir. Bəhs olunan dövrdə verilişlərin növbəti 105 sayı efirə təqdim olunmuşdur. Ötən ay Naxçıvan radiosunun da efiri, proqram siyasəti və şəbəkəsi nəzarətdə saxlanılmışdır. Radio ay ərzində 471 saat efirdə olmuşdur. Ümumi efirin 41 faizini radionun öz istehsalı olan verilişlər təşkil etmişdir. Ay ərzində 140 veriliş və canlı proqram, 314 konsert proqramı təqdim olunmuşdur.

Yayım profili tədrisyönümlü olan "Kanal 35" Televiziyasının aprel ayındakı fəaliyyəti şura tərəfindən izlənmiş, mart ayının monitorinqinin nəticələrində qeyd edilən təklif və tövsiyələrin tətbiqi və monitorinqin nəticəliliyinə nail olunması diqqətdə saxlanılmış, aprel ayının 19-da televiziya əməkdaşlarının iştirakı ilə keçirilmiş monitorinqin nəticələri müzakirəyə çıxarıldıqdan sonra televiziyada film və proqramlar efirə yayımlanarkən yaş həddinin təyin edildiyi nişanlardan istifadə olunmağa başlanılmışdır. Artıq televiziyada mövzu təkrarçılığı ilə müşahidə olunan film və teleçarxların yayım vaxtı proqram cədvəlində uyğun vaxtlarda tərtib edilir.

Şura aprel ayında "Naxçıvanın səsi" radiosunun efirinin mütəmadi monitorinqini aparmış, şura əməkdaşları radioda olmuş, əməkdaşlar ilə görüş keçirmiş, müzakirələr aparmışlar. Aprel ayı monitorinqinin nəticəsinə əsasən radio 240 saat efirdə olmuşdur. Efir müddətinin 57 saatını canlı yayım proqramları və verilişlər təşkil etmişdir.

Naxçıvan Dövlət Universitetinin muxtar respublika ərazisində yayımlanan, tədrisyönümlü verilişlərin üstünlük təşkil etdiyi televiziya kanalında aprel ayının 20-də mərkəzin texniki heyəti yayım vaxtı televiziyanın loqosunu ekranda görüntüləməyi unutmuşdur. Şura bu barədə televiziyanın məsul şəxsinə məlumat vermiş, nöqsan aradan qaldırılmışdır.

Şura tərəfindən bəhs edilən dövrdə sosial platformalarda Naxçıvanla bağlı 700-dən çox foto və video, xəbər paylaşılmış, mərkəzi mətbuat orqanları üçün 130-u mətbuat xidmətlərinin materialları olmaqla, 183 xəbər, 3 müsahibə, 6 videosüjet verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

# Ailə təsərrüfatlarının yetişdirdikləri göycə məhsullarının satış yarmarkası keçirilib



***Mühüm coğrafi mövqedə yerləşən ulu yurdumuz Vətənimizin ən qədim meyvəçilik regionlarından biri hesab edilir. Əlverişli oroqrafik xüsusiyyətlərə və torpaq-iqlim faktorlarına malik olan diyarımızda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının uğurlu icrası nəticəsində meyvəçilik sahəsində yüksək göstəricilərə nail olunub. Mart ayının 12-də Ali Məclisin Sədri cənab Vasif Talıbov "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.***

2021-2025-ci illəri əhatə edən yeni Dövlət proqramı da əvvəlki proqramların icrası dövründə əldə olunmuş müsbət nəticələrin davamlılığını təmin edəcəkdir. Meyvə-tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması, müvafiq sahədə ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi, müasir texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin qurulması proqramın əsas məqsədlərindən biridir. Bu Dövlət proqramının reallaşdırılması bundan sonra da daxili bazarda meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılmasını, muxtar respublikanın rayonlarında relyef və iqlim şəraiti nəzərə alınmaqla yeni meyvə bağlarının salınmasını, genişləndirilməsini təmin edəcək. Dövlət proqramlarının icrası zamanı Naxçıvana məxsus meyvə sortlarının istehsalının artırılması ilə yanaşı, onların təbliği və tanıdılması da diqqət mərkəzində saxlanılır.



Diyarımızda hər mövsümün özünəməxsus dadı ilə seçilən meyvələri vardır. Yaz fəslinin adla deyilən meyvəsi isə göycədir. Onu da qeyd edək ki, 2020-ci ilə kimi muxtar respublikada dörd "Göycə" festivalı keçirilib. Mayın 22-si və 23-də Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində keçirilən ailə təsərrüfatlarının yetişdirdikləri göycə məhsullarının satış yarmarkası da bu sahə ilə məşğul olan zəhmət adamlarının məhsullarını vaxtında və əlverişli satmalarına şərait yaratdı.

Qeyd edək ki, yarmarkaya muxtar respublikanın şəhər və rayonlarından olan 218 ailə təsərrüfatı tərəfindən 20 tondan artıq göycə gətirilmişdi. Burada göycədən hazırlanan mürəbbə, cem, əzmə, kompot və araqların sərgi və satışı da təşkil edilmişdi. İki gün davam edən tədbirdə ailə təsərrüfatı sahibləri ilə həmsöhbət olduq.

Babək rayonunun Nehrəm qəsəbəsində yaşayan *Cəmşid Həsənov* illərdir ki, göycə bağına qulluq edir. O deyir ki, həyətindəki göycə ağaclarına xüsusi qayğı göstərir. Bu ağacları vaxtlı-vaxtında budayıb, dərmanlayır. Ailə təsərrüfatı sahibi gətirdiyi göycə məhsuluna marağın böyük olduğunu söyləyərək bildirir ki, belə yarmarkaların təşkili bu meyvənin tanıdılmasına xidmət etməklə yanaşı, məhsulu yetişdirməyə də stimul yaradır. İndiyə kimi keçirilən göycə festivalları çox maraqla qarşılanıb.



Şərur rayon təsərrüfatçıları ilə də həmsöhbət oluruq. Rayonun Danyeri kənd sakini *Yaqub Həsənov* deyir ki, 30 ildən çoxdur, göycə bağına sahibdir. Lakin məhsulu ilk dəfə elə burada təşkil edilən festivala çıxardıqdan sonra daha yaxşı tanınıb. Yaqub dayı bildirir ki, indi Azərbaycanın hər yerindən və naxçıvanlılar yaşayan xarici dövlətlərdən hələ göycələr çiçək açmamış göycə sifariş edirlər. Müsahibim deyir ki, onun yetişdirdiyi məhsul dadına və görünüşünə görə keçirilən festivallarda mükafat və diploma da layiq görülüb. Bütün bu qayğıya və diqqətə görə minnətdarlığını bildirən Yaqub dayı qeyd edir ki, Uca Yaradan dünyanın başı üzərini alan bu virus bəlasını tezliklə üstümüzdən götürsün, gələn il bu vaxt yenidən əvvəlki illərdə olduğu kimi, digər ölkələrdən də gələn qonaqların iştirakı ilə festivallar keçirək.

Ordubad şəhər Şəhriyar qəsəbə sakini *Sabir Əliyev* deyir ki, yetişdirdiyi bu məhsulun müştərisi həmişə başının üstündə olur. Hər həftə keçirilən kənd təsərrüfatı yarmarkaları ilə yanaşı, belə tanıdıcı xarakter daşıyan yarmarkaların da təşkil edilməsi bu məhsulun satışına daha geniş şərait yaradır. Naxçıvan göycəsinin adının dillər əzbəri olduğunu bildirən müsahibim deyir ki, bu meyvə Vətənimizin digər bölgələrində "sultan alça", "alça" deyə yetişdirilsə də, Naxçıvan torpağında bitən göycə ilə eyni dadı vermir. Ona görə də bu meyvədən bir yeyən yenə yemək istəyir. Təsərrüfatçı muxtar respublikada meyvəçiliyin inkişafı üçün yaradılan hərtərəfli şəraitə görə minnətdarlıq etdi.



Bakı şəhərindən qonaq gələn *Zəminə Abbaszadə*: – Naxçıvan torpağının ləziz nemətlərinin dadı damaqda qalır. Yurdumuzdan uzaqda olsaq da, buranın bütün nemətlərini hər mövsümdə dadmaq imkanımız olur. "Yaz gələndə göycə yemədinsə, elə bil o yazı heç görməmisən", – deyən Zəminə xanım onu da bildirir ki, həm məhsulun çeşidliliyi, həm də qiyməti ürəyimizcədir. Buna görə də yurdumuzun bu nemətindən doyunca dadmaqla yanaşı, Bakıya sovqat aparmaq üçün də xeyli göycə aldım. Piştaxtalarda nümayiş etdirilən məhsullar çeşidi və xüsusi zövqlə qablaşdırılması ilə seçilir. Göycə turşusunun dadına da söz ola bilməz. Yurdumun insanlarının qonaqpərvərliyi, əliaçıqlığı isə nəyə desən, dəyər.

"Yaz fəslində, ilin bu aylarında yurdundan uzaqda olan kiməsə sovqat göndərəndə onun içərisinə birinci göycə payı qoymaq adətimizdir", – deyir Sədərək rayonundan olan ailə təsərrüfatçısı *Aybəniz İbrahimova*. Onu da bildirir ki, ilk dəfədir, Sədərəkdən olan ailə təsərrüfatları yarmarkaya göycə çıxarırlar. İllərdir, əkdiyimiz göycə ağacları bu il bar verdiyi üçün biz də burada rayonumuzu göycə və ondan hazırladığımız məhsullarla təmsil edirik. Göycənin cemini, mürəbbəsini, turşusunu və kompotunu satışa çıxarmışıq.

Rayonun Dəmirçi kənd sakini *Ceyhun Abbasov* bir hektara yaxın sahədə 400-ə qədər göycə ağacına qulluq edir. O bildirir ki, burada yetişən göycənin bambaşqa dad-tamı var. Ona görə də Naxçıvan göycəsi adla deyilir. İstər diyarımızda olan, istərsə də digər rayonlarımızda yaşayan insanlar bu meyvəni çox sevir. Məhsulumuzun bol olması üçün ağaclara vaxtlı-vaxtında qulluq edir və zəhmətimizin də qarşılığını alırıq. Bu il ötən illərdən fərqli olaraq hava şəraitinin pis keçməsi məhsuldarlığa təsirsiz ötüşməyib, lakin məhsulumuz az da deyil. Şükür Allaha, torpaq ona alın tərini qatanları darda qoymur. Qiymətlərimiz də uyğun olduğu üçün həm alıcılar, həm də biz razı qalırıq.

Qeyd edək ki, iki gün davam edən yarmarkada Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud olan istedadlı şəxslərin 400-dən çox əl işi, özünüməşğulluq proqramı və haqqıödənilən ictimai işlərə cəlb edilmiş, sosial qayğıya ehtiyacı olan şəxslərin hazırladıqları 150-dən çox məhsulun sərgi-satışı təşkil olunmuşdu.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikadan olan 97 istedadlı qadının, ümumilikdə, 2028 əl işi də yarmarkaya çıxarılmışdı. İkigünlük sərgi-satışda 31 istedadlı qadının 605 manat dəyərində 118 əl işi satılmışdır.

*Beləliklə, Naxçıvanın min bir təbii sərvətini, mətbəx zənginliyini və süfrə mədəniyyətini sərgiləyən tədbirlərdən biri də uğurla başa çatdı. Belə yarmarkaların təşkili sahibkarlığın inkişafına göstərilən dövlət qayğısından xəbər verməklə yanaşı, diyarımızın adla deyilən meyvəsi olan göycənin tanıdılmasına da xidmət edir.*

**Ramiyyə ƏKBƏROVA**

*İlk dəfə olaraq Naxçıvanda təşkil edilən qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı maraqlı qarşılaşmalarla davam edir. 12 zəka sahibinin mübarizə apardığı yarışda artıq dörd tur geridə qalıb. Keçirilən görüşlərdən sonra mübarizə aparan zəka sahibləri ilə həmsöhbət olduq.*

# Qadın şahmatçılar arasında gərgin mübarizə davam edir

***Xəyalə Abdulla – qadınlar arasında beynəlxalq qrossmeyster:***



– Uzun zamandır, Naxçıvanda təşkil edilən şahmat festivallarında iştirak edirəm. Pandemiya şəraitində ancaq evdə məşqlər edirdim, canlı oyun üçün çox darıxmışdım. Eşidəndə ki, Naxçıvanda şahmat üzrə Azərbaycan çempionatında iştirak edəcəyəm, çox sevindim. Mənim üçün Naxçıvanda oyunlarda iştirak uğurlu olur. Çünki hər bir şərait yaradılıb, təşkilatçılıq yüksək səviyyədədir. Bu gün IV tur keçirildi. Hələ qarşıda yeddi tur var. Ən yaxşılar oynadığı üçün rəqabət də güclü gedir. Düşünürəm ki, gərgin mübarizəyə görə qalib son tura qədər bəlli olmayacaq. Oyunlar gərgin keçməsinə baxmayaraq, xoşdur. Çox ruh, səy, enerji ilə oyuna davam edirəm. İndiyədək bir turda məğlub, bir turda heç-heçə, iki turda isə qalib olmuşam. Bu gün gənc, perspektivli şahmatçı Nazlı Hümbətova ilə oynadıq. Çətin oyun keçdi, amma sonda qələbə qazandım. Məqsədim, əlbəttə ki, qalib olmaqdır.

***Ayan Allahverdiyeva – FIDE ustası:*** – Mən 8 yaşımdan Naxçıvanda təşkil edilən şahmat festivallarında iştirak edirəm. Ən son pandemiyadan əvvəl gəlmişdim bura. İndiyədək evdə onlayn olaraq şahmatla məşğul idim. Burada iştirak məni ruhlandırdı. Həmişə Naxçıvanda şahmata olan diqqət yüksək səviyyədə olur. Hələ ki, iştirak etdiyim oyunlar mənim üçün qənaətbəxşdir. Bu turda beynəlxalq usta Səbinə İbrahimova ilə oynadıq və oyun heç-heçə ilə bitdi. Rəqiblərim güclüdür, amma qalib olmaq üçün sona qədər mübarizə aparacağam. Burada təcrübə əldə edirəm, arzum hələ ki, qrossmeyster olmaqdır. Çempionatın təşkilatçılığından çox razıyam, bütün iştirakçılara uğurlar arzu edirəm.



***Mələk İsmayıl – ustalığa namizəd:*** – Uşaqlıqdan şahmat oynayıram. 2013-cü ildə dünya çempionatında dördüncü, 2014-cü ildə isə Avropa çempionatında birinci yeri tutmuşam. Naxçıvanda təşkil olunan çempionat, mən deyərdim, ən güclü çempionatdır. Artıq dördüncü dəfədir, Naxçıvanda yarışlarda iştirak edirəm. Hər şey yüksək səviyyədə təşkil olunub. Bu gün Nəsrin Babayeva ilə oynadım və qalib ayrıldım. Buradakı məqsədim qalib olmaqdan çox, reytinqimi artırmaq, təcrübə qazanmaqdır. Qalib gəlmək üçün isə çox çalışmaq və vaxtı düzgün idarə etmək lazımdır. Gərək çox səbirli olasan, son anda səngiməklə, oyunu əldən vermək olar. Bugünkü oyunumuz 5 saat çəkdi və rəqibimi üstələyə bildim. Ümid edirəm, bu çempionat mənim üçün uğurlu davam edəcək. Bütün iştirakçılara uğurlar arzu edirəm.



**Güntac ŞAHMƏMMƏDLİ**

# Çempionatın dördüncü turu başa çatıb

Naxçıvanda təşkil olunan şahmat üzrə qadınlar arasındakı Azərbaycan çempionatında 4-cü tur başa çatıb. Bu turda qrossmeyster Ülviyyə Fətəliyeva (2301) beynəlxalq usta Gövhər Beydullayevanı (2263) sınağa çəkib. Görüş Gövhərin qələbəsi ilə başa çatıb.




Beynəlxalq usta Gülnar Məmmədova (2382) isə Səbinə Rzalı (1925) ilə xalları yarı bölüb. Qrossmeyster Zeynəb Məmmədyarova (2274) FIDE ustası Ləman Hacıyevanı (1982) məğlub edib.

FIDE ustası Ayan Allahverdiyeva (2088) ilə beynəlxalq usta Səbinə İbrahimovanın (2213) görüşündə "sülh" qeydə alınıb.

Naxçıvanlı şahmatçı Nazlı Hümbətova bu turda qrossmeyster Xəyalə Abdulla (2263) ilə görüşdə məğlub olub. Digər təmsilçimiz Nəsrin Babayeva (1704) isə Mələk İsmayılla (1997) "bacarmayıb".

Turnir cədvəlinə hazırda 3,5 xalla Gülnar Məmmədova və Zeynəb Məmmədyarova başçılıq edirlər.

Bu gün beşinci turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Gülnar Məmmədova - Nazlı Hümbətova*
*Ləman Hacıyeva - Ayan Allahverdiyeva*
*Ülviyyə Fətəliyeva - Səbinə Rzalı*
*Xəyalə Abdulla – Zeynəb Məmmədyarova*
*Səbinə İbrahimova - Nəsrin Babayeva*
*Mələk İsmayıl - Gövhər Beydullayeva*

Görüşlər saat 14:$^{00}$-da başlayacaq.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Şərur rayonunun Yuxarı Daşarx kəndində yaşamış Tağıyev Məhərrəm Məmmədtağı oğlunun adına olan 159$^{A}$ və 159$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonunun Dəmirçi kəndində yaşamış Yaray Səmayə Abbas qızının adına olan A-020471 inventar nömrəli torpaq sahəsinin plan-ölçüsü və MH-0064007 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Həsənova Nadirə Məmmədhəsən qızının adına olan 1208 inventar nömrəli texniki pasport və MH-0055299 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 423